Tarix və onun problemləri, №1 2010

**RAFİQ İSMAYILOV**
*Bakı Dövlət Universitetinin dosenti*

# VIII-X ƏSRLƏRDƏ MİSİRDƏ SƏNƏTKARLIQ

VIII-X əsrlərdə Misirdə sənətkarlığın inkişafı və təkamülü hər şeydən öncə ölkədə «mükəmməl və zəngin şəhər (oturaq) sivilizasiyasının mövcudluğundan qaynaqlanırdı».(13, V, 383). Ən azı ona görə ki, həmin sivilizasiyanın daşıyıcısı olan insanın hər zaman həm öyrənməsi, həm də öyrətməsi şəxsin məxsusi keyfiyyəti və təyinatı idi. Təbiidir ki, bu, eyni zamanda insanın öz əməyinin nəticəsi olan qida, paltar və ev-mənzil kimi yaşam üçün ən zəruri ehtiyaclarının yüksək və artıq dərəcədə ödənilməsinə göstərdiyi marağın təminatı rolunu oynayırdı. Bir-birilə üzvi surətdə bağlı olan və biri digərini tamamlayan bu hal bütün dövrlər üçün xarakterikdir.

Apardığımız araşdırmalar zəminində gəldiyimiz belə bir qənaəti də diqqətə çatdırmaq istərdik ki, sözügedən dövrdə misirli insan, - təbiidir ki, malik olduğu siyasi və sosial status, eləcə də iqtisadi imkanlar çərçivəsində, - yetərincə zövqlü idi və zövqlü yaşamağa çalışırdı. Bunu qaynaqların konkret məlumatları da təsdiqləyir: şəhər bazarında yaxşı yeməklər hazırlanan və satılan yerlər və meyvə-tərəvəz köşkləri, müxtəlif geyimlər və parçalar, eləcə də ev-mənzillər üçün bəzək əşyaları satılırdı . Hər bir misirlinin yaşamaq üçün ev-mənzili olmasının göstərici idi ki, qaynaqlar şəhərlərdə yurdsuz-yuvasız insanların mövcudluğundan, demək olar ki, söz açmır. Ümumiyyətlə isə təkcə misirlinin deyil, bütünlükdə Xilafət insanının üstün və zövqlü yaşam göstəricilərinin başında onun gözəl və yaraşıqlı geyinməsi dururdu. Həmin səbəbdən də sözügedən dövrdə zövqlü geyinmək qabiliyyəti və məharəti yüksək kamillik dərəcəsinə çatmışdı (26, 365). Bu ehtiyacı ödəmək zərurəti isə toxuculuğu və onunla bağlı sənətləri ən önəmli fəaliyyət sahəsinə çevirmişdi.

Misirli sənətkarlar kətandan, yundan və ipəkdən müxtəlif çeşidli parça və paltarlar toxuyurdular. Pambıqdan toxunan parça və paltarların olmasına dair məlumatlara da rast gəlinir. Bütün bunlar haqqında başqa bir yazımızda ətraflı bəhs etdiyimizdən, biz burada toxuculuqla bağlı iki məqama aydınlıq gətirməklə kifayətlənmək istərdik. Bunlardan birisi parça və paltarlara bəzək və naxışların vurulmasıdır. İsitər qaynaqların məlumatları, istərsə də toxuculuq məhsullarının bədii tərtibatı haqqında tədqiqatlar bizi bu qənaətə gətirir ki, bir rəssam düşüncəsi və əməyi sayla biləcək bəzək və naxış vurma sözugedən dövrdə toxuculuq istehsalı ilə bağlı olan sənətkar əməyindən ayrılmamışdı. Bu işlə toxucular özləri məşğul olurdular. Onlar eyni zamanda həm toxucu, həm rəssam, həm də nəqqaş idilər. Təbiidir ki, bu da toxucunun yüksək etstetik zövqə və dərin təfəkkürə malik olması demək idi.

İkinci məsələ isə parça və paltarların, yaxud onların istehsalı üçün istifadə olunan lif və ipliyin boyanmasıdır. Başqa sözlə, boyaqçılıqdır.

Boyaqçılıq (ərəbcə: sibağə) müstəqil sənətkarlıq sahəsi idi. Bu hal sözugedən əsrlərdən xeyli öncəki dövrlər üçün də xarakterik olmuşdur. Boyaqçılıq müəyyən ailə və tayfaların irsi məşğuliyyəti idi. Onlar bu sənətin sirlərini nəsildən-nəsilə və yalnız öz ailə üzvlərinə ötürürdülər. Qeyd ki, boyaq məhsullarının emalı üçün Misirin özündə ot və ağac mənşəli kifayət qədər xammal var idi. Boyaqçılar həmin xammaların hansından nə kimi rənglərn və qarışdırma zəminində yeni rəng çalarlarının alınması texnologiyasını yüksək səviyyədə mənimsəmişdilər (24, 228).

Misir müxtəlif təyinatlı və müxtəlif tutumlu gəmirlərin inşasına görə də layiqli ad çıxarmışdı və bu, bir sıra səbəblərdən irəli gəlirdi: birincisi, ölkənin malik olduğu təbii-

coğrafi amillər, Nil çayı, Aralıq və Qırmızı dənizlər kimi gəmiçilik üçün yararlı su hövzələrinin varlığı; ikincisi, tarixi islamaqədərki dövrlərə gedib çıxan böyük təcrübə və zəngin ənənə, - ən azı Xilafət öz hərbi və mülki donanmasının yaranması üçün bu ölkəyə borcludur (17, 138); üçüncüsü, yüksək istehsal mədəniyyətinə malik və peşəsinin əla bilicləri olan sənətkarların sayı hər vaxt yetərincə idi; dördüncüsü, istər ticari, istərsə də hərbi təyinatlı gəmilərə ölkə ehtiyacları daim artırdı. Bütün bunlar həm də ona gətirib çıxarmışdı ki, ölkədə gəmi inşası sənətinin aramsız və mükəmməl fəaliyyəti üçün lazım olan xammalla təchizi mexanizmi yaranmışdı. Xammala, - meşə materiallarına, - gəlincə, o, ya idxal yolu ilə, ya da yerli ehtiyatlar hesabına əldə edilirdi. İdxal haqqında İbn Bətutə yazır: "Misir meşə materiallarını, -ərəbcə, əl-əxşab, - Aralıq dənizi sahillərindəki çoxlu meşəlikləri olan [Bizans] ərazilərindən alırdı. Burada gəmilərə yüklənən xammal İskəndəriyyə və Dumyata çatdırılırdı" (1, 217). İstəxri İskəndəriyə şəhərinin yaxınlığında Ənəlüsdən gətirilən şam ağaclarının xüsusi bir yerdə saxlanıldığını qeyd etmişdir (18, 197). Hindistan və Yəməndən də ağac materiallarının gətirilməsi, onlardan Eyzabdakı tərsanədə istifadə edilməsi haqqında məlumatlar da vardır (31. 165).

Yerli xammalın həmişə olması da, – ölkə ehtiyaclarını tam ödəməsə də, - orta çağ müəlliflərinin diqqətindən kənarda qalmamışdır. Məsələn, erkən orta çağ tarixçisi İbn Əbd əl-Hakəmin yazdığına görə, xəlifə Ömər (634-644) dövründə «əl-Cəzirə» tərsanəsi üçün lazım olan ağac materialları yerli xristian qibtilərdən ədalətli qiymətlərlə satın alınmışdır (27, 110). İbn Məmati və Məqrizi isə yerli xammalın əsasən Yuxarı Misirin əl-Bəhənəcə, əl-Əşmuneyn, Asyut, Əxmim və Qus əyalətlərindəki dövlətə məxsus meşələrdən əldə edildiyini göstərirlər.

Bu səbəblərdən idi ki, ərəb-müsəlman dövründə də Misir gəmi inşası sahəisndə nəinki mühüm mərkəz olaraq qaldı, ümumiyyətlə, Xilafətin hərbi və mülki gəmilərə olan ehtiyacını ödəməkdə başlıca rol oynmağa başladı. Abbasilər isə gəmi inşasısının inkişafına və onun yerləşmə coğorafiyasının genişlənməsinə diqqəti daha da artırdılar.

Belə ki, islamöncəsi Misirdə gəmi inşasında başlıca rol İskənədriyyə şəhərinə məxsus idi (31, 163). Fustatın salınmasından sonra isə İskəndəriyyənin yerini, - başqa sahələrdə olduğu kimi, - ora tutdu. Şəhərin «əl-Cazirə» adlanan məhəlləsində 674-cü ildə əsası qoyulan tərsanə gəmi inşasında başlıca mərkəz oldu. Ölkənin hər yerindən mahir sənətkarlar buraya toparlandı və prosesdə hakimiyyətin bilavasitə iştirakı vardı. Bunu qaynaqlar da təsdiqləyir. Məsələn, vali Kurra ibn Şarik Kum-Aşquh paqarxına məktubunda ondan tələb edir ki, sözügedən tərsanədə çalışmaq üçün işçilər, sənətkarlar və dənizçilər göndərsin (20, 82). Eyni zamanda tərsanələrin ehtiyac duyduğu metal, mismar və bu kimi digər ləvazimatlarla təchizində əhalinin imkanlarından istifadə olunurdu (20, 82). Həmin qaynaqlardan o da bəlli olur ki, dövlət əsasən hərbi təyinatlı gəmilərin işnası ilə maraqlanırdı (24, 116).

Qeyd edək ki, Abbasilər Misiri üçün iqtisadi yüksəlişin və sərhəd toqquşmalarının xarakter olması gəmi inşasının inkişafını zəruri edirdi. Bu hal hərbi təyinatlı gəmilərin inşasında daha çox görsənirdi. Məsələn, Məqrizi yazırdı ki, 238 (852)-ci ildə bizanslıların Dumyata hücumundan sonra xəlifə əl-Mütəvəkkil (847-861) Misir valisi Ənbəsə ibn İshaqa (852-855) hərbi donanma ilə ciddi maraqlanmasını əmr etmişdi (23, I, 246). O da «əl-şavani» (24, 116) adlanan iri gəmilər inşa etdirmiş və donanmanı möhkəmləndirmişdi (23, I, 246). Əhməd ibn Tulun (868-884) dövründə isə gəmi inşası işlərinə xüsusi önəm verilmiş (29, I, 83), Fustatdakı «ə-Cəzirə» tərsanəsi yeniləşdirilmiş və əlavə olaraq hərbi gəmilər inşası üçün yeni korpus tikilmişdi. Əhməd İbn Tulun ölümündən sonra oğluna ümumi sayı minə çatan hərbi və mülki gəmi miras qoymuşdu (10, 233-239).

Digər bir Misir hökmdarı Məhəmməd ibn Tuğc əl-İxşid (935-946) də fəaliyyətinə faktik olaraq 936-cı ildə Fustatın Nilə bitişik məhəlləsində «əs-Sinaə [t] əl-Kubra» və

yaxud «Sinaə[t] Mısr» adı ilə məşhurlaşmış yeni bir tərsanə tikdirməklə başlamışdı (4, IV, 12; 30, II, 265). Onunla yanaşı «əl-Cəzirə» tərsanəsi də fəaliyyətini davam etdirirdi (4, IV, 12; 23, II, 108).

Gəmi inşası mərkəzləri sırasında İskəndəriyyə, Dumyat, Qulzum və Eyzab şəhərləri də məxsusi yer tuturdu. Bunlardan İskəndəriyyə və Dumyatda dövlətin himayə etdiyi iri tutumlu hərbi gəmilər inşasına üstünlük verilirdi (23, II, 192; 22, III, 523). Mülki təyinatlı və müxtəlif növlü və tutumlu gəmilərin inşası isə adı çəkilən bütün şəhərlər üçün xarakter idi (23, II, 192; 22, III, 523). Ancaq Eyzab daha çox fərqlənirdi (3, 65). Burada gəmi inşası ilə sakinlərin özləri fərdi və ya kollektiv şəkildə məşğul olurdular (23, I).

Abbasilər Misirində geniş yayılmış sənətkarlıq sahələrindən birisi də nəbati mənşəli xammala əsaslanan şəkər istehsalı idi. Bu hal, hər şeydən öncə, ondan qaynaqlanırdı ki, istehsalın xammal bazası sayılan şəkər qamışı, demək olar ki, bütün ölkəboyu becərilirdi. Həm Aşağı Misirdə (1, 138), həm də Yuxarı Misirdə (23, I, 202; 4, V, 33) geniş şəkər qamışı tarlaları vardı. Bu bitkinin ən çox becərildiyi yer isə Fəyyum sayılır. Onu da deyək ki, toplanan məhsul yerli ehtiyacları ödəməklə yanaşı, digər yerlərə də aparılırdı (22, III, 313). Bu baxımdan demək olar ki, şəkər istehsalının coğrafiyası bütün ölkəni ehtiva edirdi. Lakin ən məşhur mərkəz Fustat idi. Burada nəinki çoxsaylı şəkər istehsalı sexləri, -mitbax, cəmdə: mətabix, - həm də xammal satışı bazaları, - funduq əl-qasab, - fəaliyyət göstərirdi (4, IV, 40). Şəkər istehsalı sexləri dövlətə və şəxslərə məxsus olmaqla iki yerə bölünürdü. Dövlət sexləri dövlət məmurları tərəfindən idarə olunurdu. Sözugedən dövrdə şəkər istehsalı sahəsində digər məşhur şəhərlər də vardı. Onlardan hər biri bu və ya digər fərqli cəhətlərə malik idilər. Həmin sırada Asyut xüsusi qeyd olunmalıdır. Burada hazırlanan ağ şəkər, müxtəlif növlü şəkərlər və digər şəkər məmulatlarının müəyyən hissəsi ölkədaxili bazarlara və ümumiyyətlə isə, bütün dünyaya daşınırdı (31, 188). İri mərkəzlərdən sayılan Qus şəhərinin məhsulları da daxili bazarla yanaşı, Hicaza və Həbəş ölkəsinə ixrac edilirdi. Şəkər sexlərinin ən çox olduğu şəhər isə Qıft idi. Burada qırx sex fəaliyyət göstərirdi (23, I, 232).

Sənətkarlıq növü olaraq məhz Misirə məxsus olan fəaliyyət sahələrindən biri də papirus kağızlarının istehsalı olmuşdur. Həm də onun tarixi çox qədimlərə gedib çıxır və konkret olaraq haqqında bəhs etdiyimiz dövrdə, digər sənətkarlıq sahələrində olduğu kimi, qaynaqlar onun da inkişafdan qalmadığını qeyd edirlər. İbn əl-Fəqihin (X əsr) sözləri ilə desək, «papirus [istehsalı] misirlilərin işi olmuşdur və bu sahədə onların şəriki yoxdur» (5, 66). Papirus kağızları emalı sənətinin normal və aramsız fəaliyyəti üçün ölkədə yetərincə xammal-papirus qamışı vardı və o, Nil çayının münbit sahilləri boyunca bitirdi. Ən çox olduğu yer isə Fəyyum və ətrafı idi (22, III, 307). Qaynaqlar papirus qamışının Yuxarı Misirdə də bitdiyini xəbər verirlər (23, I, 43, 187).

Qeyd edək ki, papirus kağızının istehsalı müəssisələri də sözügedən coğrafiyada yayılmışdı. Onlardan ən böyüyü İskəndəriyyə şəhərində idi (20, 257). Həmin çevrənin müxtəlif yerlərində də emal müəssisələrinin olması qaynaqlarda öz əksini tapmışdır. Bu baxımdan Bura (32, 338) və Dəhqələyə (33, 23) xüsusi önəm verilir. Yuxarı Misirdə isə Asuan ən iri istehsal mərkəzi idi (31, 196).

Qaynaqlarda o da yazılır ki, misirli sənətkarların istehsal etdiyi papirus kağızlarına ölkə daxilində böyük ehtiyac vardı və o kağızlar xəlifə Əmin (809-833) dövrünədək, - Misirə Çin və Səmərqənd kağızları gətirilənə qədər, - burada yeganə yazılma vasitəsi idi (26, 372). Hətta Çin və Səmərqənd kağızlarından istifadə edilməyə başlanıldıqda belə, onların bahalığı səbəbindən(26, 372), papirus kağızları əvvəlki əhəmiyyətini əsla itirmədi.

Nəbati mənşəli xammalın emalına əsaslanan sənətkarlıq növləri sırasında daha bi-

rinin olmasını da qeyd etmək lazımdır. Bura müxtəlif bitki toxumlarından yağların, gül və çiçəklərdən ətir cövhərlərinin alınması (34, 62; 30, II, 219) daxildir.

Yağ növlərindən ən əhəmiyyətlisi «simsim»dən (küncüt) alınırdı. O, «sirac» (küncüt yağı) adlanırdı, bahalı və ən bol olanı idi (34, 61; 4, IV, 26). «Simsim» əsasən Fəyyumda becərilsə də, emal müəsisələri, -«mə'asir» Misirin çox şəhərlərində vardı (4, IV, 26). Ən başlıca mərkəz isə Fustat sayılırdı. İbn Hövqəl yazır: «Fustatda [bu sahədə] hər biri adı ilə tanınan mükəmməl sexlər, -«mə'asir» vardı. Binasının möhtəşəmliyi və məhsulunun çoxluğu baxımından onlardan heç birinin bütün Misirdə tayı-bərabəri yox idi» (4, V, 47-48). Lakin sonralar zeytun ağaclarının kütləvi halda əkilməsi, becərilməsi və onun meyvələrindən yağ alınması küncüt yağı emalını arxa plana keçirdi və onun yerini zeytun yağı tutdu (31, 205). Əvəzində isə küncüt yağının – siracın qiyməti xeyli artdı (34, 61).

Qaynaqlarda şəlğəm, turp, turşəng, kahı və s. kimi tərəvəz köklərindən də yağ emal edilməsi haqqında məlumatlar vardır. O da bildirilir ki, həmin yağlardan işıq fənərlərində istifadə olunurdu (34, 61). İbn Hövqəl yazır: «Şəlğəm yağı Saxada, eləcə də Səndəfada emal olunurdu» (11, 131). Məqrizi isə əlavə edir ki, bitki yağı emal edilən mərkəzlərdə səliqəli yağ bazarları vardı (23, I, 462).

Nəbati mənşəli xammala əsaslanan sənətkarlığın bir istiqaməti də gül və çiçəklərdən ətir və dərman təyinatlı cövhərlərin emalı sayılmalıdır. Qaynaqlar bu baxımdan Fəyyum, Dumyat və Fustat şəhərlərini, həmin bölgələrdə nilufər, bənövşə, yasəmən və qızıl gülün bol olduğunu xüsusilə qeyd edirlər. Məsələn, məşhur yasəmən ətirləri Dumyatda emal olunurdu və qadınlar onu çox sevirdilər (29, I, II; 4, IV, 108). Fəyyum isə qızıl gül suyu istehsalı ixracatının mərkəzi idi (9, V, 92). Burada bir çox xəstəliklərə dərman sayılan xardal yağı da istehsal olunurdu (30, II, 193). «Fustatda kəndalaş ağacından emal edilən balzam isə Misrin ixracat malları arasında mühüm yer tuturdu», - sözlərini söyləyən İstəxri onu da əlavə etmişdir ki, kəndalaş acağları yalnız Fustat ətrafında bitir və dünyada ondan başqa yer tanımır (18, 42). Bu fikri başqa müəlliflər də təkrarlamışlar (11, I, 160-161; 34, 65). Bir sıra xəstəliklərin müalicəsində istifadə olunan balzam yalnız misirli tacirlər tərəfindən alınır, Avropa ölkələrinə aparılır və orada baha qiymətə satılırdı (19, II, 373).

Əski zamanlardan Abbasilər Misrinə miras qalmış sənətkarlıq sahələrindən biri də arar mənşəli xammaldan şərab və müxtəlif şirə məmulatlarının istehsalı idi. Şərab istehsalı, təbiidir ki, xristian əlali üçün nəzərdə tutulurdu. Ancaq qaynaqlarda ondan müəyyən sayda müsəlmanların da istifadə etməsi haqqında məlumatlar vardır. Maraqlırıdr ki, həm bu məlumatlar, eləcə də şərab istehsalı haqqındakı məlumatlar birbaşa deyil, dolaysı ilədir. Məsələn, xəlifə II Ömər (717-72) Misir valisi Əyyub ibn Şərəhbilə (717-719) göndərdiyi məktubunda (27, 334) əmr edir ki, birincisi, haram olması səbəbindən xalq şərabdan istifadə etməməlidir; ikincisi, vali şərabın istehsal və istifadə yerlərinin fəaliyyətini qadağa etməlidir (35, I, 226). Vali Əli ibn Süleyman (785-787) dövründə isə əyləncə yerlərinin bağlanması və şərab satışının qadağan edilməsi əmr olunmuşdur (35, I, 62). Məqrizi şairlərin və əyləncə sevən insanların şərab dalınca monastırlara getdiyini yazmışdır (23. I, 501, 553). Bu məzmunlu məlumat Xumaraveyh (884-896) haqqında da vardır (29, I, 271). Yaxud, X əsr Misir şairlərindən Qazi əl-Baqar və başqları şərab içməyin ləzzəti və sevincini böyük ruhla qələmə almışlar (8, 83-90). Onu da unutmaq olmaz ki, klassik ərəb poeziyasında «xəmriyyat», ərəbcə «xəmr» – «çaxır» deməkdir, - adlanan bir janr vardır və onun da ən mahir ustası şair Əbu Nuvas (768-813) olmuşdur (7, I, 301-308).

Abbasilər Misirində müxtəlif mənşəli şirə və şərbətlərin istehsalı da geniş yayılmışdı. Bunlardan «bal şərabı» adlı içki çox məşhur idi (25, I, 20). Yaqub əl-Həməvi yazır

ki, bu içki Misirdən başqa heç yerdə hazırlanmır (32, I, 61). Ən başlıca istehsal mərkəzi isə Dəmənhur idi (11, 150).

Misirdən bəhs edən, özəlliklə isə «əl-məsalik va-l-məmalik» janrlı elə bir orta çağ qaynağı yoxdur ki, bu ölkədə lap qədimdən qızıl, gümüş, zəy, natrium, dəmir, mis və neft kimi dağ-mədən məhsullarının bol olmasına və onların emalı ilə bağlı fəaliyyət növlərinə önəm verməsin. Təbiidir ki, bu ənənə erkən islam dövründə də saxlanılırdı. Abbasilər dövründə isə daha geniş inkişaf və intişar etmişdi. Həmin qəbildən olan fəaliyyət növləri sırasında «həddad»- dəmirçi əməyi və məhsulları xüsusi yer tuturdu. Onun da əsasında müxtəlif silahların, hər şeydən öncə isə, qılıncların hazırlanması dayanırdı. Bu baxımdan iki faktın: birincisi, yaddaşlardan çıxmayan «misri qılınc» anlayışını və ikincisi, qılıncın hazırlandığı metalın emalı haqqında filosof əl-Kindi (?-837) tərəfindən ilk elmi əsərin (21) yazılmasını xatırlamaq yerinə düşərdi. Sonuncu fakt həm də ona dəlalət edir ki, dəmirçi sənəti, konkret halda qılınc hazırlanması dəmir emalından başlayırdı. Belədirsə, sual yaranır: hər iki proses bir bütündür və bir bir şəxs tərəfindənmi icra olunur? Qaynaqlarda bu suala birbaşa cavab yoxdur. Lakin həmin dövrdə sənətkarlıqda differensasiyanın güclənməsi və ən başlıcası isə, Kindinin metal emalının xüsusi bir proses və icraçı ustanın daha çox texnoloji təcrübə və biliyə malik olmasını, onun texnoloji xaratkerli alət və vasitələrdən, o cümlədən «butəqə-puta» (metal əritmək üçün odadavamlı qab), «ənbiq» - destilə qazanı, çeşidli kəsici və tutucu kəlbətinlər, «kir»-körük, «sindan»- zindan, «tinkar» - boraks (natrium duzu) və hazırda işlənmədiyindən tərcüməsi mümkün olmayan «səqmuniya», «ihlilbəh», «milh əz-zərari» kimi kimyəvi maddələrdən istifadə etməsini (21, 26-28) xüsusi vurğulaması belə düşünməyə əsas verir ki, sözügedən proseslər ayrı-ayrılıqda mövcud idi və ayrı-ayrı sənətkarlar tərəfindən yerinə yetirilirdi. Düşüncəmizi belə bir fakt da möhkəmləndirir ki, silah və digər metal ləvazimatların hazırlanmasına ehtiyac duyulan dəmirin kuralar-əyalətlər arasında bölüşdürülməsinə hakimiyyətin özü nəzarət edirdi (31, 227-228). Məqrizi isə metal emalı sənətinin hətta özünün növlərə bölündüyünə işarə etmişdir: «Fustatda mis və polad əritmə sexləri, -«məsabik», - var idi» (23, I, 267).

O ki, qaldı konkret halda qılınc və paralel olaraq ox-yay, nizə kimi silahların, onlarla bağlı olan alət və vasitələrin istehsalına, bu işlə həm fərdi, həm də dövlət emalatxanalarında məşğul olunurdu. Fərdi emalatxana mülki şəxslərin, - o, əyan və ya qəbilə başçısı da ola bilərdi, sıravi vətəndaş da, - dövlət emalatxanası isə ordunun ehtiyaclarına xidmət edirdi. Qeyd edək ki, dövlət emalatxanaları dövlət gəmi tərsanələrinin ərazisində yerləşirdi. Onların da ən əhəmiyyətlisi Fustatdakı «əl-Cəzirə» tərsanəsində fəaliyyət göstərirdi (10, 239-240). Orada istehsal olunan qılınclar qızıl, gümüş və polad tərkibli idilər, illik sayı isə on minləri aşırdı (23. I, 417).

Qiymətli və əlvan metallar xammal formasında daxili və xarici ticarətin başlıca predmetlərindən idi və onlardan daha çox mis və dəmir alətlər, qıfıl, mismar və cürbəcür bəzək əşyaları kimi müxtəlif məmulatların hazırlanmasında istifadə edilirdi. Hətta bəzi şəhərlər istehsal etdiyi məmulatlarla şöhrət qazanmışdı. Məsələn, Nasir Xosrov Tinnis şəhərini çox qiymətli bıçaq, qayçı və s. kimi dəmir alətləri istehsalı mərkəzi kimi vəsf etmişdir (34, 40). Dilas şəhəri adı ilə tanınan yüyən, - «əl-lucum əd-dilasiyyə», - istehsalı ilə məşhur idi (36, 237). Burada üç yüz dəmirçi həmin sənətlə məşğul olurdu (14, 51). Məqrizi də Fustatı həmin şəhərlər sırasında görür (23, I, 268). Qaynaqlara görə Asuan qızıl və qızıl məmulatı tacirlərinin cəmləşdiyi mərkəz (36, 3344 23, I, 196), Eyzab isə onların ixracatçısı idi (17, 35).

Qeyd edək ki, müxtəlif tərkibli və müxtəlif təyinatlı metal məlumatları sənətkarlığı daha çox yerli xammala əsaslanırdı (31, 227). Ancaq qaynaqlarda çatışmayan bəzi xammal növlərinin, - məsələn, dəmir kimi, - idxal edilməsi faktlarına da rast gəlinir (24,

327). Yerli xammalın böyük hissəsi Asuan ətrafı bölgələrdəki zəngin filiz yataqlarından əldə edilirdi (36, 334; 25, III, 43). Burada çıxarılan filiz suxurları saflaşdırılır, şəhər metaləritmə sexlərində, -ərəbcə: məsbək, məsabik, -əridilir, yerindəcə alıcılara - tacirlərə satılırdı. Onlar da hazır xammalı Misirin müxtəlif şəhərlərinə və ya digər ölkələrə aparırdılar (36, 334; 74, 29).

Qaynaqlar Misirdə zəngin daş-qaş, -konkter desək, zümrüd,- yataqlarının olduğunu göstərirlər. Onlar Səiddə -Yuxarı Misirdə Qıft şəhəri ətrafındakı əl-Ərus və əl-Xueum adlı ərazilərdə yerləşirdi (36, 333). Qaynaqlar onu da qeyd edirlər ki, zümrüd dünya ticarət mərkəzlərində böyük şöhrət qazanmışdı (14, 22). Ancaq çıxarılan zümrüd hər şeydən öncə dövlət ehtiyaclarını ödəyəcəyi səviyyədə Fustata - xəzinəyə göndərilirdi. Yerdə qalan hissə isə Hindistan, Sind, Çin, Şərqi Afrika, Məğrib ölkələri, Əndəlüs, Siciliya və digər Batı ölkələrinə aparılırdı (23, I, 332-333; 22, III, 459).

Ədfu bölgəsində isə zəy çıxarılırdı. Zəy də ölkənin daxilində istifadə ilə yanaşı, İskəndəriyyə şəhəri vasitəsilə Məğribə və Batı Avropaya ixrac edilirdi (23, I, 235).

Faydalı qazıntılar sırasında «natrun»-soda da vardı. O, Fəyyum şəhəri yaxınlığında «əl-buheyra» adlanan su hövzəsində çıxarılırdı (23, I, 185) və çoxlu bazarları olan Tarnut adlı kənddə emal olunurdu (23, V, 27). Təmizlənmiş natrun-soda buradan bütün ölkələrə, - «yuhməl ilə cəmi' əl-bilad», - aparılırdı (14, 106).

Misirdə digər faydalı qazıntıların da mövcudluğu haqqında məlumatlar vardır. Lakin biz o qazıntılardan söhbət açdıq ki, onlar, birincisi, bu və ya digər sənətkarlıq sahəsi üçün xammal idi; ikincisi, bu və ya digər sənətkarlıq məhsullarının hazırlanmasında qatışıq kimi istifadə olunurdu. Bu baxımdan irəlidə bəzi məqamlara toxunduq və istərdik ki, onlara bəzi əlavələrimizi də edək. Məsələn, qızıl və gümüş, eləcə də zümrüd cah-cəlal, zənginlik və bər-bəzək atributları – göstəriciləri sayılan qiymətli əşyalar və ləl-cəvahiratın, bahalı mücrü və sandıqçaların, qolbağı və üzüklərin hazırlanmasında birbaşa xammal və dolayısı ilə isə bəzək ünsürləri rolunu oynayırdı. Misirli toxucular «tiraz» adlanan ən bahalı libasların hazılanmasında qızıl saplardan istifadə edirdilər.

Zəyə gəlincə, o, əsasən boyaqçılıqda və rəngkarlıqla, natrun-soda isə şüşə istehsalında, rəngləmə işlərində, təbabətdə müxtəlif dəva-dərmanların hazılanmasında istifadə olunurdu (22, ııı, 465).

Arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri və yazılı qaynaqların məmulatlarına əsasən belə bir nətiəcyə gəlmək olar ki, Abbasilər Misirində şüşə, şüşə qablar, saxsı məmulatlar, dulusçuluq məhsulları, gön-dəri, həsir və ayaqqabılar, giş paltarı və müxtəlif kəndirlər istehsalı da xeyli inkişaf etmişdi. Bu sahələrdə peşəsinin yüksək səviyyəli professionalı olan sənətkarlar çalışırdı. Eyni zamanda həmin sənətlərin yayılma coğrafiyası da çox geniş idi. Və yaxud, bu və ya digər sənət sahələri yzrə öncül rol oynayan şəhərlər zaman axarında öz yerini başqalarına vermişdilər. Məsələn, islamöncəsi, hətta Əməvilər dövründə şüşə və şüşə qablar istehsalının mərkəzi sayılan İskəndəriyyə (31, 249), - Ərmənt və Səqarə şəhərlərinin adları da onunla yanaşı çəkilirdi, - Abbasilər dövründə Fustatla əvəzlənmişdi. Bu səbəbdən idi ki, həmin məsələdən bəhs edən qaynaqlar Fustatı şüşə sənətkarlığının ən mühəm mərkəzi (29, I, 36), - əhəmmu mərakiz sina'ə(t) əz-zucac, - İskəndəriyyə, Fəyyum, Bəhənəcə və Əşmuneyn şəhərərini isə sadəcə mərkəzlər (23, I, 342; 29, I, 36), - mərakiz, - adlandırırlar. Həm də əlavə edirlər ki, Fustatda çoxlu şüşə emalı sexləri, - məsabik, - vardı və onlar daha möhtəşəm sarayların, məscidlərin və küçələrin işıqlandırılması üçün lampalar, - məsabih, -və fanarlar, - qənadil, - istehsal edirdilər. Həmin məlumatlar şəhərdəki «şuq əl-qəndil» adlanan məxsusi bazarda satılırdı (34, 174). Qaynaqlarda digər şüşə məlumatlarından müxtəlif qab-qacaqlar, dibçəklər, güldanlar, bardaqlar, boşqablar, qrafinlər, yağ və ətir saxlanılan qablar və s. məişət əşyalarının adları sadalanır (34,

174).

Yeri gəlmişkən onu da qeyd edək ki, məişət əşyaları sırasında büllur məmulatları da önəmli yer tuturdu. N.Xosrov «Süq əl-qənadil»dən bəhs edərkən orada büllurdan müxtəlif əşyalar hazırlayan olduqca məharətli ustalar gördüyünü də yazmışdır (34, 60-61).Tədqiqatçılara görə onların əl işləri xarici bazarlarda böyük şöhrət qazanmışdı (31, 251-252). N.Xosrov eyni mənalı sözləri dulusçuluq məmulatları haqqında da söyləmişdir. Bunu arxeoloji qazıntıların nəticələri də təsdiqləyir. Belə ki, tapılmış maddi nümunələrə əsasən tədqiqatçılar bu qənaətə gəlmişlər ki, həmin dövrün dulusçuları böyük ustalıq dərəcəsinə çatmışdılar (34, 61). Ümumiyyətlə, Misirdə geniş yayılmış dulusçuluq şəbəkəsi mövcud idi və istehsal üçün ölkənin müxtəlif yerlərində zəngin xammal vardı (28, 37). Dulusçuluğun ən çox inkişaf etdiyi yer İskəndəriyyə şəhəri idi. Lakin sonralar Fustat önə çıxmışdı. Bu da Tulunilər dövlətinin (868-905) banisi Əhməd ibn Tulunun həmin sahəyə xüsusi önəm verməsi ilə bağlıdır (28, 37-38). Bu ənənə İxşidilər (935-969) dövründə də davam etmişdir (17, 138). N.Xosrov yazır: «Fustatda hər cür dulusçuluq məhsulları istehsal edirlər, onlar zərif və şəffafdırlar. Kasalar, qədəhlər və boşqablar al-əlvandır, bərq vurur, hər tərəfdən baxanda fərqli rənglərdə görünür və buqələmunu xatırladır» (34, 61).

Sözügedən dövrdə Misirdə gön-dəri məmulatlarının hazırlanması təcrübəsi də vardı. Xammal kimi əsasən ov heyvanlarının dərisindən, bir sıra hallarda isə Həbəşistandan gətirilən inək gönündən istifadə olunurdu (34, 61). Qaynaqlar onu da vurğulayırlar ki, misirlilər gön-dəri məmulatlarının istehsalı mexnologiyasını, -dəbğ (işlənmə), rəngləmə və konkret məhsul hazırlanması peşələrini, - Afrikanın zənci əhalisindən öyrənmiş və çox yaxşı səviyyədə mənimsəmişdilər (18, 54-55; 23, 180). Bu baxımdan Əxmim sənətkarları xüsusilə fərqlənirdilər. Onların əməyinin məhsulu olan məmulatlar «əxmimi dəriləri» adı ildə şöhrət qazanmışdı (36, 232). Məmulatlara gəlincə, onların sırasında dəri çətirlər və örtüklər, dəri səndəllər və ayaqqabı altları, minik yəhərləri və dəri fərşlər vardı. Dəri məmulatları daha çox Yuxarı Misir şəhərlərində istehsal olundu. Böldgədə istehsal olunduğu şəhərin adı ilə məşhur olan məhsullardan birisi də «Dilas cilovları» idi (14, 51).

Kulturologi üstün şəhərlərdə, - əsasən də İskənədriyyə və Fustatda, - zərif işlənmiş və əlvan rənglənmiş dəridən bəzi məiişət əşyalarının bəzədilməsində, - məsələn, masaların və oturacaqların üzlənməsində, - geniş istifadə olunurdu və yaxud evlərə su daşımaq üçün tuluğ hazırlanırdı (34, 61). Müəyyən kitabların, əlyazmaların və xüsusilə də «Quran»ın üz qabığının cildlənməsii də bu qəbildən olan işlər idi (31, 257).

Ölkənin zəngin olduğu papirus, qarğı-qamış, palma və s. bitkilərin qol-budağı, yarpağı və gövdəsindən həsir, kəndir və digər əşyalar istehsalı da bir sənətkarlıq növü kimi əvvəllərdən mövcud idi. Lakin o, Abbasilər dövrü Misirində xeyli inkişaf etmişdi. Bu da, hər şeydən öncə, yeni-yeni şəhərlər salınması, çox sayda məscid, hamam, mehmanxana, ticarət evləri və cərgələri, əskər kazarması inşasına xüsusi önəm verilməsi ilə bağlı idi. Bəlli olduğu kimi, sözügedən sənətkarlıq məhsulları da məhz bu tipli ictimai tikililərdə daha çox işlədilirdi (23, II, 247-248). Təbiidir ki, fərdi itsifadə də geniş yayılmışdı.

Yuxarıda deyilənləri belə yekunlaşdırmaq istərdik ki, orta çağ qayanqları Abbasilər Misirində sənətkarlığın bütün sahələrində nəzərə çarpacaq fəallıq və inkişaf olduğunu birbaşa və birmənalı şəkildə təsdiq edir. Bu sahədə məhsuldar qüvvələrin inkişafına gəlincə isə, onu müəyyən təxminlərə əsasən belə xaratkerizə etmək olar: həmin dövrdə məhsuldar qüvvələrin inkişafı yeni əmək alətləri yaradılmasından daha çox ustaların peşəkarlığının təkmiləşməsi və yüksəlməsindən, eləcə də ayrı-ayrı peşələr arasında əmək bölgüsünün eninə və dərininə artmasından qaynaqlanmışdır. Fikir verin:

erkən islam dövründə peşələr cəmisi 180 civarında terminlə ifadə olunurdusa (6, 14), bu rəqəm sözugedən dövrdə 265-ə çatmışdı (9,99).

### ƏDƏBİYYAT:

1.İbn Bətutə. Rihlə (t). Əl-Qahira, 1287h.
2.Cəhşiyari. Kitab əl-vuzara va-l-kuttab. Əl-Qahira, 1980.
3.İbn Cubeyhr. Rihlə(t). Əl-Qahira, 1955
4.İbn Dudmaq İbrahim. Əl-intisar li-vasitət aqd əl-əmsar, əl-cür ər-rabi. Əl-Qahira, 1893
5.İbn əl-Fəqih. Müxtəsər kitab əl-buldan. Leyden, 1885
6.И.Ф.Фихман. Египет на рубеже двух эпох (Ремесленники и ремесленный труд в IV – середине VII в.), М., 1965
7.Ханна ал-Фахури. История арабской литературы, т,1. Москва-Изд-во иностранной литературы, 1959
8.Ə.Əliyev, R.İsmayılov. IX-X əsrlərdə Misir ədəbiyyatına dair, ADU-nun «Elmi əsərləri (şərqşünaslıq), 1971, №1
9.Ş. D.Goitein. A Mediterranean Soctety. Univ-ty of California press, 1967, 462s
10.Z.Hassan. Les Tulunides, Paris, 1933
11.İbn Hövqəl. Əl-məsalik va-l-məmalk. Leyden, 1873
12.İbn abd-al Xakam. Zavoevanie Eqipta, al-Andalusa. M., 1985
13.İbn Xəldun. Əl-Müqəddəmə, Əl-Qahira, 1930
14.Əl-İdrisi. Nuzhət əl-muştaq. fi ixtiraq əl-afaq. Leyden, 1866
15.R.İ.İsmayılov. X əsrdə Misirdə toxuculuğun vəziyyətinə dair bəzi qeydlər, - ADU-nun «Elmi əsərləri» (tarix və hüquq seriyası), B.1976, №3,
16.Р.Исмаилов. Некоторые вопросы египетского текстильного ремесла в X в., - Товарно-денежные отношения на Ближнем и Среднем Востоке в эпоху средневековья, Москва-«Наука», 1979
17.R.İsmayılov. İxşidilər dövləti, Bakı, 2007
18.Əl-İştəxri. Kitab məsalik va-l-məmalik. Leyden, 1870
19.İbn İyas. Bəda'i əz-zuhur fi vaqae əd-duhur. Mısr, 1312h.
20.İ.Kaşif. Mısr fi facr əl-islam. Əl-Qahira, 1994
21.Əl-Kindi. Əbu Yusuf. Risalət fi əməl əs-suyuf. Bağdad, 1962
22.Əl-Qəlqəşəndi. Subh əl-aşa fi sinaət əl-inşa. Əl-Qahira, 1913-1919
23.Əl-Məqrizi. Əl-Məvaiz va-l-itibar fi zikr əl-xitət va-l-asar. Mısr, 1324h.
24.İbn Məmati. Qəvavin əd-dəvavin. Əl-Qahira, 1943
25.Əl-Məsudi. Murac əz-zəhəb va məadin əl-cövhər. Mısr, 1303h.
26.А.Мец. Мусульманский ренессанс. Москва, 1973
27.İbn Əbd Rəbbihi. Əl-aqd əl-fərid. Əl-Qahira, 1949
28.Said Hamid əs-Sadr. Mədinət əl-fəxxar. Mısr, 1960
29.İbn Səid. Əl-Məğrib fi hula əl-muğrib. Leyden, 1899
30.Əs-Süyuti. Husn əl-mühadirə fi axbar Mısr va-l-Qahira, Mısr, 1321h.
31.Safa Ali Muhəmməd. Mudun Mısr əs-sinaiyyə, Əl-Qahira, 2000
32.Yaqut əl-Həməvi. Mucəm əl-buldan. Leybziq, 1868
33.İbn Zulaq. Fəda'il Mısir ba-axbaruha va xavassuha. Əl-Qahira, 1999
34.Nasir Xosrov. Səfərnamə, Əl-Qahira, 1945
35.İbn Təğribərdi. Ən-nucum əz-zahira fi-muluk Mısr va-l-Qahira. Əl-Qahira, 1935-1937
36.Əl-Yəqubi. Kitab əl-buldan. Leyden, 1891

**РАФИК ИСМАИЛОВ**
***Доцент Бакинского Государственного Университета***

## РЕМЕСЛО В ЕГИПТЕ В VIII – X ВЕКАХ

Статья посвящена рассмотрению причин развития различных видов ремесел в Египте в VIII – X веках. Особо отмечается, что наиболее высокого уровня развития в ремесленной сфере достигли кораблестроение и производство оружия, вслед за ними, а возможно и наравне с ними – изготовление украшений, драгоценностей и одежды различного вида и предназначения. Если первые из них служили удовлетворению растущих потребностей страны, то вторые были призваны в рамках расширявшейся урбанизации обеспечить египтянину роскошный и аристократический стиль жизни.

**RAFIK İSMAILOV**
***Dossent of Baku State University***

## HANDICRAFT IN EGYPT IN VIII-X CENTURIES

In article is spoken about development and reasons of the kind of different handicraft in VIII-X centuries in the Egypt. Especially is emphasized that, in head of handicraft areas where the development is shown in high-level stand up shipbuilding and weapon production, then may be in in the same row riches, preparing after of the things of adornment and different appointed clothes. The first of these served to pay needs increasing of the country, but the second was had directed to the guarantee rich and high tasteful aristocrat live in the inside of urbanization conditions expanding of the Egyptian man.

***Rəyçilər: t.e.d.N.Axundova, t.e.d.Q.S.İsmayılov.***
***BDU-nun Tarix fakültəsinin «Asiya və Afrika ölkələri tarixi» kafedrasının 28 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***